# AI | PROGRAMMING




#GələcəkBurada

/ code academy

Süni intellekt (AI) bacarıqları olan işçilər
2024-cü ildə orta hesabla

# 56%

daha yüksək
əmək haqqı alıblar.

Mənbə: PwC 2025 · AI Jobs Barometer

Ətraflı bax

# Proqramlaşdırma Qlobal Dünyada

Proqramlaşdırma müasir digital dünyanın əsas sütunlarından biridir. Bank və fintech, e-ticarət, telekommunikasiya və startap ekosistemində frontend, backend və mobil mühəndislərə tələbat durmadan artır. Qlobal nəhənglər, Google, Amazon, Meta, Netflix, bu sahənin standartlarını formalaşdırır. Azərbaycanda isə Kapital Bank, PAŞA Bank, ABB və Azercell mühəndis tələbatını davamlı artırır.

**Stack Overflow-un 2024-cü il araşdırmasına görə, dünyada ən çox istifadə olunan proqramlaşdırma dilləri JavaScript (62%), HTML/CSS (53%), Python (51%), SQL (51%) və TypeScript-dir (38%) (Stack Overflow, 2024).**

**Generativ AI bacarığı tələb edən vakansiyaların sayı 2021 - 2025-ci illər arası 55 - 10.000 artıb. (Lightcast)**

| Qlobal software bazar həcmi | Dünya üzrə developer sayı (Stack Overflow 2024) | AI-powered development tələbatı |
| --- | --- | --- |
| **$650 mlrd** | **27 mln** | **+40%/il** |

# Proqramlaşdırma Code Academy-də

**Təhsilin**

**85%-i**

**praktiki iş üzərində və qlobal təcrübələrə əsaslanaraq hazırlanmışdır.**

Code Academy-də tədris edilən Süni İntellekt Dəstəkli Proqramlaşdırma tədrisi sektorun mövcud vəziyyəti və ehtiyacları əsasında hazırlanaraq davamlı olaraq yenilənir. Proqramdakı bütün modullar nəzəri dərslərlə birgə, real iş mühitində baş verən hadisələrin praktiki məşğələləri ilə tədris edilir.




Qeyd olunan əmək haqqıları (AZN/il) tam ştat və remote iş imkanları nəzərə alınaraq hesablanıb.

Tədrisi uğurla bitirən tələbələr beynəlxalq sertifikat imtahanlarına (məs: Microsoft Certified: .NET / Azure – təsdiqlənməli) hazırlıq qazanır. Akademiyanın Zəmanətli Təhsil Modeli ilə isə təhsili təkrar alma imkanı verilir.

AI bacarığı (AI fluency) tələb edən işçilərin sayı cəmi 2 ildə 1 milyondan 7 milyona qədər

# 7x

artıb (2023-2025) – bütün bacarıqlardan daha sürətli artım.

Mənbə: McKinsey · 2025

Ətraflı bax

# Tədris Proqramı

## 1 Proqramlaşdırma və alqoritmik düşüncə

Proqramlaşdırmanın məntiqi əsasları və struktural yanaşması öyrədilir; alqoritmlər üzərindən düşünmə tərzi və problemlərə mərhələli yanaşma formalaşır. C# ilə yazılan kodlar real tətbiq yönümlüdür. Funksiyalar, şərt operatorları, dövrlər və məlumat strukturları ilə yanaşı təmiz, strukturlaşdırılmış kod yazma vərdişləri aşılanır.

## 2 Süni intellekt ilə kodu anlama və yaratma

Proqramın ən unikal hissəsi AI ilə interaktiv işləmə prosesidir. GitHub Copilot, Claude Code və Codex ilə kod generasiyası, refaktor, sintaktik səhvlərin düzəldilməsi və sənədləşmənin avtomatlaşdırılması öyrədilir. Tələbə həm kod yazmağı, həm də AI-da düzgün sorğu (prompt) verməyi öyrənir.

### Fərqli texnologiyalarda düşünə bilmək

3

C#, Java, Python və JavaScript dillərində qarşılaşdırmalı təhlillərlə texnologiya-aqnostik düşüncə formalaşdırır.

### Komanda işi və layihə təqdimatı

4

Süni intellekt ilə işləyən komandaların tərkibində kod paylaşmaq, versiya nəzarəti və buraxılış layihəsini jüri qarşısında təqdim etmək təcrübəsi qazanır.

### Verilənlər bazası və ORM inteqrasiyası

5

SQL və NoSQL bazaları ilə işləmək, mürəkkəb sorğular qurmaq və optimal saxlama öyrədilir. Entity Framework ilə ORM, kod və baza arasında avtomatik əlaqə, Fluent API, migration və real-world data modelləşdirmə ilə tələbə baza dizayn və idarəsini sərbəst həyata keçirir.

### Veb və server tərəfi inkişafı

6

ASP.NET Core müasir backend-in əsas texnologiyalarındandır. Tələbə server tərəfli web arxitekturası, routing, authentication, middleware, API quruluşu və təhlükəsizlik tədbirləri ilə işləməyi öyrənir. Frontend inteqrasiyası (HTML, CSS, JS) ilə həm məlumatı serverdə işləyir, həm də istifadəçiyə düzgün çatdırır.

### Layihə hazırlığı və DevOps

7

Kod yazmaq başlanğıcdır – onu real dünyaya çatdırmaq fərqli bacarıqdır. Tələbə sıfırdan Booking App qurub tam deploy vəziyyətinə gətirir. Git/GitHub, Docker, deployment və CI/CD tətbiq olunur; kodu real serverə yerləşdirib idarə etməyi bacarır.

# Hansı Bacarıqlara Sahib Olacaqsan?

## Proqramlaşdırma təfəkkürü

Alqoritm və data strukturları ilə yanaşı, AI ilə problem həll etmə və sistemli texniki düşüncə.

## AI ilə kodu anlama və yaratma

Claude Code, GitHub Copilot və Codex ilə kod yazma, təhlil və optimizasiya.

## Məhsul yönümlü tətbiqlər

Real full-stack sistemin (UI, server, database) sıfırdan kodlanması və testi.

## Fərqli texnologiyalarda düşüncə

C#, Java, Python, JavaScript ilə qarşılaşdırmalı, texnologiya-aqnostik yanaşma.

## Veb və server tərəfi inkişafı

HTML, CSS, JavaScript və ASP.NET Core ilə interaktiv, real-time veb-tətbiqlər.

## Test və buraxılış standartı

Unit/inteqrasiya testləri, DevOps və CI/CD ilə sabit proqram təminatı.

## Komanda işi və təqdimat

Kod paylaşma, versiya nəzarəti və buraxılış layihəsinin jüri qarşısında təqdimi.

## Verilənlər bazası və ORM

SQL, NoSQL və Entity Framework ilə real bazalarla iş və performans.

# MİNİMUM RESURSLA EFFEKTİV NƏTİCƏ ƏLDƏ ETMƏK İSTƏYƏN, ÖZ LAYİHƏSİNİ SÜNİ İNTELLEKTLƏ QURAN VƏ PROQRAMLAŞDIRMA İLƏ MARAQLANAN HƏR KƏS ÜÇÜN!

# Kimlər Üçündür?

- **Universitet tələbəsi və ya yeni məzunsansa**

  Həm bilik, həm də portfolio qazandırır;
  işə qəbulda "Mən nə etmişəm?" sualının cavabı olur.

- **Proqramlaşdırma ilə ilk dəfə tanış olursansa**

  Heç vaxt kod yazmamısan, amma gələcəyini texnologiya ilə
  qurmaq istəyirsənsə – bu proqram sənin üçündür.

- **İşsizsənsə və ya karyeranı dəyişirsənsə**

  Sıfırdan tam yol xəritəsi. 16-22 həftədə texniki ixtisas.
  Sertifikat deyil – tamamilə yeni peşə.

- **Artıq kod yazırsan, amma tətbiqdə çətinlik çəkirsənsə**

  Bacarıqlarını strukturlaşdıran, AI ilə daha məhsuldar olmağı
  öyrədən çevik praktiki model.

- **AI ilə işləməyi öyrənmək istəyən yaradıcısansa**

  Dizayner, yaxud marketinq mütəxəssisi ol – AI ilə texniki
  bacarıqları birləşdirib unikal nəticə əldə et.

# Code Academy Tələbəsi Olmaq

Code Academy-də tədris alan hər bir tələbə sahə üzrə bilik və bacarıqlarını inkişaf etdirməklə yanaşı, eyni zamanda bu sahənin peşəkarları ilə bir mühitdə olmaq imkanı qazanacaq, 8000 nəfərdən çox tələbəsi olan Code Academy ailəsinin bir parçasına çevrilərək, yeni dünyanın mütəxəssisləri ilə davamlı ünsiyyətdə olacaq və Open Space ərazisindən şəxsi və peşəkar inkişafı üçün istifadə edə biləcəkdir.

**+10.000**
ümumi tələbə sayı

**116**
pedaqoji heyət

**12saat / 7gün**
"Open Space"-dən istifadə



## Məzunlarımızın işlədiyi top şirkətlər

PAŞA Bank, birbank, kontakt, Azercell, Google, Bolt, azərlotereya, AZINTELECOM, vibe& wave, asan xidmət, bakcell, ABB, PAŞA Holding, amazon.com, Baku Electronics

# Tələbələrin Uğur Hekayələri



**Nurlan Məmmədov**
Technical Lead
**BirBank**

Code Academy-də aldığım intensiv proqramlaşdırma təhsili karyeramda çox güclü bir dönüş nöqtəsi oldu.
Tədris müddətində real layihələr, mürəkkəb texnoloji strukturlar və sistem memarlığı üzərində qazandığım praktiki təcrübə, mühəndislik vizyonumu tamamilə başqa bir mərhələyə daşıdı. Burada mənimsədiyim analitik düşüncə, problem həll etmə bacarığı və sistemli yanaşma metodologiyası sayəsində bu gün 'Birbank' şirkətində Technical Lead olaraq fəaliyyətimi uğurla davam etdirirəm. Doğru zamanda alınan keyfiyyətli təhsilin və göstərilən əzmin insanı hədəflədiyi zirvəyə nə qədər inamla çatdırdığının ən gözəl nümunələrindən birini yaşayıram.



**Vüqar Əmrahov**
Senior Software Engineer
**Shaw Industries, ABŞ**

Proqramlaşdırma sahəsinə keçid etmək qərarı verdikdən sonra Code Academy-də təhsil almağa başladım. Təhsil müddətində əldə etdiyim bilikləri praktikada tətbiq etmək imkanı qazandım və kurs başa çatmadan ilk peşəkar işimə başladım. Sonradan mentor kimi fəaliyyət göstərərək həm tələbələrə dəstək oldum, həm də öz bilik və bacarıqlarımı daha da inkişaf etdirdim. Bu təcrübə mənim üçün güclü bir təməl yaratdı və bu gün proqram təminatının hazırlanması sahəsində uğurlu karyera qurmağıma kömək etdi.



**Mələk Muxtarlı**
Software Engineer
**Yapı Kredi Bank**

Təhsilimi proqramlaşdırma üzrə oxusamda bu sahədə özümə yer tapa biləcəyimi sanmırdım. Uzun müddət mühasib işlədikdən sonra, çox yaxın dostumun sayəsində Code Academy ilə bu sahəyə yenidən qayıtmağa qərar verdim. Qorxaraq başladığım bu sahədə Müəllimlərimin böyük dəstəyi ilə fərqlənmə ilə bitirdim. İlk işim olan Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə işə qəbul olduqda nə qədər doğru seçim etdiyimdən əmin oldum.



**Nərmin Rüstəmova**
Chief Transformation Officer
**OBA Marketlər Şəbəkəsi**

2017-ci ildə Code Academy-də proqramlaşdırma təhsili aldığım zaman məqsədim sadəcə yeni bir bacarıq qazanmaq idi, amma əslində bu, bütün karyera istiqamətimi dəyişən qərar oldu. Kod yazmağı öyrənmək mənə təkcə texniki bir bacarıq vermədi – sistemləri necə düşünmək, problemləri hissələrə ayırıb həll etmək və biznes ilə texnologiya arasındakı dili anlamaq imkanı verdi.
Bu gün ölkənin ən böyük retail şəbəkəsində İT və Biznes Proseslərinin İdarəolunmasına rəhbərlik edirəm. Komandamla – developerlərlə, infrastruktur və biznes prosesləri mütəxəssisləri ilə – eyni dildə danışa bilməyim məhz o dövrdə qoyulan təməldən qaynaqlanır. Hər gün görürəm ki, doğru zamanda atılan bir təhsil addımı insanı nə qədər irəli apara bilir.

## Google-da artıq yeni kodun dörddə birindən çoxu süni intellekt tərəfindən yazılır

# 25%+

sonra mühəndislər tərəfindən yoxlanılıb təsdiqlənir.

Mənbə: Google · 2024

Ətraflı bax

# Tədris proqramı cədvəli

| Həftəiçi: Bazar ertəsi - Cümə (5 gün) | |
|---|---|
| **Səhər:** 09:00 - 12:45 | 18 həftə |
| **Günorta:** 14:00 - 17:45 | 18 həftə |
| **Axşam:** 19:00 - 21:45 | 24 həftə |

| Həftəsonu: Şənbə, Bazar (2 gün) | |
|---|---|
| **Səhər:** 10:00 - 14:45 | 36 həftə |
| **Günorta:** 15:30 - 20:15 | 36 həftə |

* Tədris proqramı lab saatları daxil ümumilikdə 360 saat davam edir.

”

**Ən qaynar yeni proqramlaşdırma dili – İngilis dilidir.**



# ANDREJ KARPATHY

OpenAI / Tesla AI keçmiş rəhbəri

/ code academy

Nizami küç. 203B, AF Business House, 2-ci mərtəbə
+99412 310 0113 / +99450 444 2633
info@code.edu.az / www.code.edu.az